“Təsdiq edirəm”
Azərbaycan Dövlət
Pedaqoji Universitetinin rektoru
t.e.d., prof. C.M.Cəfərov
“04” Fevral 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# ELMİ-TƏDQİQAT SİYASƏTİ

**BAKI – 2025**

Scanned with
CamScanner

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) elmi-tədqiqat işlərinin planlaşdırılması və reallaşdırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə", Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Elm haqqında"Azərbaycan Respublikasının Qanunu",Azərbaycan Respublikası Baş nazirinin birinci müavini tərəfindən 08.05.2024-cü il tarixində təsdiq olunmuş "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2024-cü il üzrə Yol Xəritəsi" əsasında həyata keçirilmişdir.

Elmi işlərin keyfiyyətinin və müəllim peşəkarlığının yüksəldilməsi, Universitetin fəaliyyət planına uyğun olaraq işlərin həyata keçirilməsi, ADPU əməkdaşlarının, doktorantların, magistrantların və tələbələrin elmi fəaliyyətlərin səmərəliliyin artırılması məqsədilə mütəmadi olaraq islər görülmüş və həmçinin üç bölmədən ibarət Elmi-təqdiqat mərkəzi yaradılmışdır.

**Universitetin elmi-tədqiqat siyasəti, prioritet tədqiqat sahələrinin istiqamətləri:**

- ✓ Yeni Struktur bölmələrinin yaradılması və mövcud strukturun optimallaşdırılması;
- ✓ Elm və təhsilin əlaqələndirilməsi, hər iki istiqamətin balanslı şəkildə inkişaf etdirilməsi;
- ✓ Elmi tədqiqatların və tədris prosesinin maddi-texniki və metodiki təminatının gücləndirilməsi;
- ✓ Perspektivli gənclərin və məzunların işə cəlb olunması yolu ilə insan potensialının (*resurslarının)* gəncləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi;
- ✓ Keyfiyyətin təminatı və idarə olunması sisteminin təkmilləşdirilməsi,
- ✓ Professor-müəllim heyətinin və elmi işçilərin fəaliyyətinin stimullaşdırılması və maddi-rifah halının yüksəldilməsi;
- ✓ İdarəetmə sisteminin təkmilləşdirilməsi, Strateji idarəetmənin həyata keçirilməsi;
- ✓ Beynəlxalq regional və ölkədaxili əməkdaşlığın inkişaf etdirilməsi;
- ✓ Universitetin akademik heyətinin elmi innovativ fəaliyyətinin artırılması və peşəkarlığın yüksəldilməsi.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Strateji İnkişaf Planına uyğun olaraq tədqiqat prioritetlərini planlaşdıraraq müəyyənləşdirilmiş tədqiqatları dəstəkləməyə üstünlük verir. Bundan əlavə, tədqiqat proseslərinin idarə edilməsi çərçivəsində milli və beynəlxalq tədqiqat siyasətlərinə uyğun olaraq prioritet sahələri müəyyən edir, xüsusi infrastruktur layihələrini dəstəkləyir və hərtərəfli tədqiqat aparmaq imkanları təklif edir.

**VİZYON**

Beynəlxalq standartlara cavab verən tədqiqatçı-müəllim hazırlığını peşə təhsilinin əsasları, ixtisas və innovasiyalar istiqamətində həyata keçirmək.

Scanned with CamScanner

Keyfiyyətli tədqiqatlar aparan, tədqiqatları texnologiyaya çevirən, bilik və bacarıqlarını bəşəriyyətin və ölkənin xeyrinə istifadə edən və gələcəyə yönəlmiş milli və beynəlxalq nüfuza malik innovativ "TƏDQİQAT UNİVERSİTETİ" olmaq.

Fənlərarası və ixtisaslı tədqiqat, təşəbbüskarlıq, yüksək səviyyəli təhsil və cəmiyyətə xidmətləri ilə milli və beynəlxalq miqyasda hörmətli və qabaqcıl tədqiqat universiteti olmaq.

**MİSSİYA**

Milli şüura malik, tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə, insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ, fərdlər- pedaqoqlar yetişdirmək;

Ölkəmizin sosial inkişaf hədəflərinə uyğun olaraq ehtiyac duyduğu mühəndislik, texnologiya, elm, təhsil və incəsənət sahələrində araşdırmalara üstünlük vermək,

Təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək,

Azərbaycan Dövlət Pedaqoji Universiteti Respublikada elmi tədqiqat sahəsində aparıcı universitetlərdən biri olmaq üçün aşağıdakı vəzifələrin icrasını öz üzərinə götürür:

Problemləri həll edə bilən, şəxsi və peşəkar inkişafa çalışan, fərqliliklərə hörmət edən, yaradıcı fərdlər yetişdirmək,

Elmdə və təhsildə innovasiyalar tətbiq etmək,

Elmə beynəlxalq səviyyədə töhfə verən və etik dəyərlərə hörmət edən fənlərarası tədqiqatların aparılmasına dəstək vermək,

Elmi tədqiqatları iqtisadi dəyərə çevirməklə sahibkarlıq və innovasiya sahələrində davamlı tərəqqiyə nail olmaq,

Sosial məsuliyyət şüuru ilə problemlərinə həssas, ictimai maraqları nəzərə alan və davamlı inkişaf məqsədlərinə töhfə verən xidmətlər təqdim etmək,

Marketinq fəaliyyəti göstərmək Universitetə yüksək bacarıqlara malik tələbələri cəlb etmək və universitetə yüksək balla qəbul olunmuş tələbələrin bacarıqlarını tədqiqat-innovasiya istiqamətində inkişafına nail olmaq,

Professor-müəllim heyətinin innovativ xarakterli elmi-tədqiqat layihələrini dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli istiqamətində fəaliyyət göstərmək,

Universitetdə elmi tədqiqat işlərinin təşviq etmək, tələbə və magistrantları elmi yaradıcılığa cəlb etmək.

**MƏQSƏDLƏR**

1. Azərbaycanın ən yaxşı araşdırma universitetindən biri olmaq,
2. Araşdırma reytinqinə görə dünyanın ən yaxşı 500 universiteti arasında olmaq,
3. Sosial və iqtisadi fayda verən tədqiqatlar ortaya qoymaq,
4. İstehsal olunan elmi bilikləri və bu bilikləri üzə çıxaracaq tədqiqatları dünya standartlarına çatdırmaq və bu insan resursunun davamlılığını təmin etmək üçün lazımi ixtisaslı kadr potensialını yaratmaq,

Scanned with CamScanner

5. İnnovativ Universitetlər və İndeksi reytinqində ön sıralarda olmaq.

**STRATEGİYALAR**

1. Araşdırma və innovasiyaya xarakterli əldə edilən layihələrin sayının artırılması,

2. Araşdırma və innovasiyalara dəstək proqramlarından əldə edilən vəsaitlərin həcminin artırılması,

3. Bütün səviyyələrdə təhsil proqramlarında həm professor-müəllim heyəti, həm də tələbələr üçün tədqiqatı təhsilin əsas komponentinə çevirərək elmi zənginliyi və motivasiyanı artırmaq,

4. Bir professor-müəllim heyətinə düşən beynəlxalq indeksli jurnallarda dərc olunan nəşrlərin sayının artırılması,

5. Tədqiqatçı, sorğu-sual və analitik təfəkkürə malik, sürətlə dəyişən dünya şəraitində cəmiyyətə rəhbərlik edə bilən, milli, mənəvi, mədəni və bəşəri dəyərlərə hörmət edən şəxsiyyətlər yetişdirməklə, təhsil və elmdə lider universitet olmaq prinsipini qəbul etmək,

6. Universitetin elmi nəşrlərinin beynəlxalq xülasələndirmə bazasına daxil edilməsi istiqamətində işlərin görülməsi,

7. Elmi nəşrlərin fəaliyyətinin müvafiq nüfuzlu beynəlxalq bazaların tələbləri əsasında qurulması,

8. Beynəlxalq tərəfdaş universitetlərdən olan elm adamlarının universitetimizdə dərc olunan jurnalların redaksiya heyətinə cəlb edilməsi,

9. Dövri elmi nəşrlərdə dərc olunan məqalələrin hər birinə rəqəmsal identifikatorun (DOI) alınması;

10. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi,

11. Doktorluq dərəcəsi almış məzunların sayının artırılması,

12. Sənaye və beynəlxalq təşkilatlarla birgə doktorantura proqramlarının hazırlanması,

13. Elmi Tədqiqat Layihələrinin dəstəyi ilə sistematik tədqiqatın təşviq edilməsi,

14. Yerli və beynəlxalq tədqiqatlara dəstək fondlarında proqramlarında iştirakın artırılması,

15. Sənaye ilə sağlam və daimi əməkdaşlığın inkişaf etdirilməsi,

16. Araşdırma və innovasiya sahələrində milli və beynəlxalq əməkdaşlığın artırılması,

17. Sosial sahibkarlıq və tələbə təşəbbüslərinin dəstəklənməsi,

18. Əqli Mülkiyyət Hüquqları, patentlər və lisenziyalaşdırma haqqında məlumatlılığın artırılması, milli və beynəlxalq patentlərin sayını artırmaqla kommersiyalaşdırma və lisenziyalaşdırma fəaliyyətlərinin effektiv şəkildə həyata keçirilməsi,

Scanned with CamScanner

19. Sistematik tədqiqat layihələri üçün xarici resurslar əldə etmək üçün nəzərdə tutulmuş universitet daxili resurslarından istifadə edən mexanizmlərin yaradılması və icrası,

20. Araşdırma və innovasiya layihələrinin tətbiqi üçün tədqiqatçılara dəstək verilməsi və layihə nəticələrinin sosial faydaya çevrilməsi,

Universitet resurslarından və infrastrukturlarından daha səmərəli istifadə üçün

Scanned with CamScanner